*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 499-508*

https://doi.org/10.62837/2025.10.499

**ORUCOV ZAKİR ŞÜKÜR OĞLU**
zakirorucov0000@gmail.com
**MİRZƏYEVA SEVİNC TOFİQ QIZI.**
sevinj99@icloud.com
ADPU-nun Ağcabədi filialı

# XX ƏSRİN BİRİNCİ YARISINA QƏDƏR GƏLOXÇULARIN MƏŞĞULİYYƏTİ, ADƏT VƏ ƏNƏNƏLƏRİ, MƏDƏNİ HƏYATI.

## XÜLASƏ

Məqalədə Laçın rayonu ərazisində yaşayan və Gəloxçu adlanan qədim türk tayfasının XX əsrin birinci yarısına qədər məşğuliyyəti, həyat tərzi, adət ənənələri, mədəni həyatı haqqında aparılmış araşdırmaların nəticələri verilir. Tarixi çox qədim dövrlərə təsadüf edən bu türk tayfası haqqında tarixi mənbələrdə məlumatlar çox azdır. Məqalədə yaşlı insanların, şahidlərin ifadələrindən, nənələrimizin qoruyub saxladıqları və gələcək nəsillərə ötürdüyü sənət nümunələrindən (əl işlərindən), arxiv materiallarından istifadə edilmişdir. Çar Rusiyası zamanında xalqın ağır güzəranı, yaşam tərzi, buna baxmayaraq, qədim adət -ənənələrini qoruyub saxlaması məqalədə öz əksini tapmışdır. Sovet dönəmində də Sovet hökuməti fəhlə kəndli hökuməti adı altında tamamilə yeni formada imperializm siyasəti həyata keçirərək xalqı kommunizm idealogiyası ilə silahlandırdı.Savadsızlığı ləğv etməklə Sovet hökumətinin siyasətini həyata keçirən kadrlar yetişdirdi. Məqalədə Gəloxçu tayfası haqqında bu və digər faktlar göstərilmişdir.

**Açar sözlər:** *Gəloxçu, türk tayfası, adət-ənənə, Gəloxçuların mədəniyyəti,*

**ORUCOV ZAKIR SHUKUR OĞLU**
**zakirorucov0000@gmail.com**
**MIRZAYEVA SEVINJ TOFIQ GIZI.**
**sevinj99@icloud.com**
**Aghjabedi branch of the Azerbaijan State University of Applied Sciences**

# OCCUPANCY, CUSTOMS AND TRADITIONS, CULTURAL LIFE OF THE GELOKHCHUS UNTIL THE FIRST HALF OF THE 20TH CENTURY.

## SUMMARY

The article presents the results of research conducted on the occupation, lifestyle, customs and cultural life of the ancient Turkic tribe called Gelokchu living in the Lachin region until the first half of the 20th century. There is very little information in historical sources about this Turkic tribe, whose history dates back to very ancient times. The article used the testimonies of elderly people, witnesses, examples of art

(handicrafts) preserved by our grandmothers and passed on to future generations, and archival materials. The hard life and lifestyle of the people during the time of Tsarist Russia, despite this, they preserved their ancient customs and traditions, are reflected in the article. During the Soviet period, the Soviet government, under the name of the workers' and peasants' government, implemented a completely new form of imperialism and armed the people with the ideology of communism. It educated cadres who implemented the policy of the Soviet government by eliminating illiteracy. The article presents these and other facts about the Gelokchu tribe.

**Keywords:** Gelokchu, Turkic tribe, customs and traditions, Gelokchu culture,

## РЕЗЮМЕ

В статье представлены результаты исследования занятий, быта, обычаев и культуры древнетюркского племени гёлокчу, проживавшего в Лачинском районе до первой половины XX века. В исторических источниках крайне мало сведений об этом тюркском племени, история которого восходит к глубокой древности. В статье использованы свидетельства пожилых людей, очевидцев, образцы искусства (ремесел), сохранившиеся у наших бабушек и переданные будущим поколениям, а также архивные материалы. В статье отражены тяжёлая жизнь и быт народа во времена царской России, несмотря на это, сохранившие свои древние обычаи и традиции. В советский период советская власть, под названием «рабоче-крестьянское правительство», осуществила совершенно новую форму империализма и вооружила народ идеологией коммунизма. Она воспитала кадры, которые реализовали политику советской власти по ликвидации неграмотности. В статье представлены эти и другие факты о племени гёлокчу.

**Ключевые слова:** Гелокчу, тюркское племя, обычаи и традиции, культура Гелокчу,

Laçın rayonu ərazisində yaşayan qədim türk tayfası olan Gəloxçuların az bir hissəsi yarımköçəri, çox hissəsi isə oturaq həyat keçiriblər. Yarımköçəri gəloxçular maldarlıq və qoyunçuluqla məşğul olublar.

Onlar qışı arana, yayı isə yaylağa köçüblər.

Oturaq həyat keçirən əhali bağçılıqla, arıçılıqla, əkinçiliklə, heyvandarlıqla, ovçuluqla, az miqdarda sənətkarlıqla məşğul olublar.

Ovçuluq gəloxçulara irsən ulu babalarından keçib. Keçmişdə ox və kamandan, tüfəng icad olunandan sonra isə tüfəngdən istifadə edərək ovçuluq ənənələrini bu günə qədər yaşadıblar. Sovet dönəmindən qabaq kəndlərdən ovçular Qafan, Zəngilan, Mehri tərəflərdə ov edib, Qubadlıda, Cəbrayılda, Naxçıvanda taxıl, düyü və digər ərzaq məhsulları ilə dəyişir, habelə satıb pal-paltar alırdılar.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 499-508*

Gəloxçuların yaşadıqları əraziərdə heyvandarlığın inkişafı üçün əlverişli təbii şərait vardır. Keçmiş zamanlarda bu ərazilərdə yaşamaq üçün elə ərazilər seçilirdi ki, ora həm güney olmalı, həm qayalıq, həm suya yaxın, həm də örüşə hər tərəfdən çıxış olmalı idi. Diqqətlə fikir versək, gəloxçular yaşayan kəndlər üçün babalarımız qədim dövrlərdə məhz belə yerlər seçmişlər. Qayalıq ərazilərdə (kəndlərin demək olar ki, hamısı qayalıq ərazilərdə salınmışdı). Əhali qayaları çaparaq yaşayış üçün kahalar qazırdılar. Kahaların yaxınlığında da qayalardan pəyələr (tövlələr) eşirdilər. Qışda bu kahalar insanları və heyvanları yağışdan, qardan, soyuqdan qoruyurdu. Həm də kahaların qazılması çətin olsa da heç bir tikinti xərci tələb etmirdi. Sonralar (XX əsrin 20-ci illərindən sonra) imkanlı adamlar daş evlər, olmayanlar isə ağacdan dörddirəkli qara damlar tikdilər. XX əsrin 50-ci illərindən sonra artıq kəndlərdə daş evlər tikilmişdi. Qara damlar çox az miqdarda qalmışdı. O zamanlar vergi ailələrin ( buna **tüstü** də deyirdilər) sayına görə alınırdı. Bu səbəbdən oğlunu evləndirən ailə başçısı onu ayıra bilmirdi, bəzən bir evdə bir neçə ailə birgə yaşamağa məcbur olurdu.



Kəndlilər tüstü pulu verirdilər. Hər tüstüyə 3,5 rubl dəyərində qızıl pul ödənilirdi. Bu o dövr üçün böyük məbləğ idi. Tüstü pulunu ödəyə bilməyən kəndli onun qarşılığında əmlakını pula çevirib verməli idi.

Kəndlərin əhalisi kəndlərin ətrafında dağların yamaclarında qədim zamanlarda əkin üçün düzəldilmiş sahələrdə müxtəlif dənli bitkilər- buğda, çovdar, arpa, pərinc, darı, qarabaşaq və s. əkir, onun məhsulunu qış azuqəsi kimi **kəndi**lərə yığırdılar. Kəndi kahalarda qış azuqəsini saxlamaq üçün ayrılmış yerlər idi. Məhsul çox olanda bir hissəsini dəyişməklə ailənin digər tələbatlarını ödəyirdilər.

Gəloxçuların məskunlaşdıqları ərazilərdə yaranma tarixi çox qədim olan əkin sahələri çoxdur. Dağların zirvəsinə doğru qalxan nəhəng pilləkənləri xatırladan və **taxta**lar adlanan əkin sahələri qədim dövrlərdə əcdadlarımızın yüksək əkinçilik mədəniyyətinə malik olduğunu sübut edir. Taxta iki hissədən - əkin üçün hazırlanmış düz yerdən və **zahman**dan ibarətdir. İki taxta bir-birindən zahman vasitəsilə ayrılır. Zahmanda adətən kol-kos, meşə ağacları, ot bitkiləri bitir. Bu da taxtanın eroziyaya uğramasının qarşısını alır.

Keçmişdə əkin sahələri əvvəllər xışla, sonralar kotanla, XX əsrin 60-cı illərindən sonra isə traktorlarla şumlanırdı. Əl əməyinin inkişaf etdiyi dövrlərdə əkin at, öküz qoşulmuş xışla, sonralar da bir ağızlı kotanla aparılırdı.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 499-508*

Xırmanlarda taxıl döyüdükdən sonra toxumluq taxılı təmizləyir ( buna **gürgən** deyirdilər), çuvallara doldurub növbəti əkin üçün saxlayırdılar. Əkin sahələri **dəmyə** ( yalnız yağış suları ilə suvarılan) sahələrdən ibarətdir. Kəndlinin dolanışığı təbiətin özünü necə aparmasından asılı idi. Zəmilərdə taxıl yetişən zaman biçin başlayardı. Uç günə biçilən yer **üçgünlük**, beş günə biçilirdisə **beşgünlük** və s. adlanırdı. Keçmişdə sünbülü **oraq**la biçirdilər. Oraq, poladdan qövsvari şəkildə hazırlanmış və ot bitkilərini biçmək üçün kənd təsərrüfatı alətidir.

Biçini həyata keçirmək üçün çox vaxt qohum-əqrəba toplaşıb bir-birinə kömək edirdilər. Buna **hav ( iməcilik)** deyirdilər. Bu zaman hər evdən bir nəfər olmaqla toplaşıb havı təşkil edənin taxılını axşama qədər biçirdilər. Həmin gün hav təşkil edən onların yeməyini verirdi. Biçinçilər sol əlləri ilə sünbülü dəstələyib oraqla biçir (buna da **bafa** deyirdilər), üst-üstə yığır, başqa bir adam onun ardınca bafaları sünbüldən hazırlanmış bağlarla - **bəndəm**lərlə **dərz** şəklində bağlayırdı. Bir dərz on bafadan əmələ gəlirdi. On dərz bir **pencə** adlanırdı. Bafanın böyüklüyü biçinçinin əlinin böyüklüyündən, dərzin də böyüklüyü bafanın böyüklüyündən asılı idi.

Sonra dərzlər at, qatır və ulaqlara yüklənib **xırman**lara daşınırdı. Xırmanlar yerin quruluşundan asılı olaraq müxtəlif ölçülərdə olurdular. Tərtəmiz təmizlənmiş xırmanda sünbül yerə döşənir, sonra enli və qalın taxtadan düzəldilmiş **vəl** ilə döyülürdü. Vəl öküzə (və ya ata) qöşulurdu və bir nəfər onu xırman boyu hərəkət etdirirdi. Buğda sünbüldən aralandıqdan sonra küləş götürülürdü, buğda toplanıb sovrulur (buna **heşam (həşəm)** atma da deyirdilər) və **saman**dan ayrılırdı. Samanı **samanlıq** deyilən xüsusi yerlərə yığıb heyvanlar üçün qışa yem ehtiyatı saxlayırdılar.

Kəndlinin ağır zəhmətilə başa gələn bu proseslər XX əsrin 60-cı illərinə qədər davam etdi. Sonra traktor, “ Malaterka”, kombayn və digər texnikaların təsərrüfatda tətbiq edilməsi ağır əl əməyini yüngülləşdirdi. Çar Rusiyası dövründə savadsızlığın, cəhalətin hakim olduğu bir vaxtda, kəndlilərin belə ağır vəziyyətə düşməsi Rusiyanın müstəmləkəçilik siyasətinin bariz nəticəsi idi. Kasıb kəndlinin uşağını oxutmaq imkanı yox idi. Bu heç hökumətin marağında da deyildi. Çünki savadsız insanları öz maraqları çərçivəsində asanlıqla idarə edirdilər. Varlı uşaqlarını da hökumət idarələrində ya tərcüməçi kimi, ya da vergiyığan kimi işlədirdilər. Gəloxçular yaşayan kəndlərdən yalnız birində - Qarıqışlaq kəndində 1888-ci ildə kənd sakini Molla Murtuza Bayram oğlu adlı kənd sakini qeyri rəsmi şəkildə öz hesabına məktəb açmış, şəriətdən dərs demişdir. Bu şəriət məktəbi 1902-ci ilə qədər fəaliyyət göstəmiş, 1901-ci ildə rəsmi olaraq dövlət qeydiyyatına alınmışdı. “Azərbaycan Dövlət Tarix Arxivinin fond materiallarına əsasən Qafqaz Təhsil Dairəsi idarəs üzrə Sirkulyarın 1902-ci il yanvar ayına olan 1-ci sayında digər məktəblərlə yanaşı yanaşı Qarıqışlaq bir sinifli məktəbin də 1 sentyabr 1901-ci ildə açıldığı qeyd olunur. Məktəb 22 nəfər şagirdlə açılmışdı. 1902-ci ildə şagirdlərin sayı azalaraq 18 nəfər olur. Qarıqışlaq kənd məktəbinin müdiri F. Ağakişibəyovun 1902-ci il yoxlama qeydlərinin surətindən məlum olur ki, məktəbə baxış zamanı “ ...vəziyyət qənaətbəxşdir ...sevir (məktəbi) və onun

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 499-508*

əhəmiyyətini başa düşür...şagirdlərin nailiyyətləri kifayət qədər qənaətbəxşdir..." Kənd icması məktəbin saxlanması xərclərini öz üzərinə götürüb. Zəngəzur qəzası üzrə məktəblərin saxlanması üçün icmalardan toplanan pul ödənişlərinə dair 1916-cı il cədvəlindən məlum olur ki, 251 evdən ibarət olan Qarıqışlaq kənd icması ildə 27 rubl 40 qəpik birdəfəlik vəsait ödəmişdir"( (*Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Laçın Rayon İcra Hakimiyyətinə göndərdiyi arayışdan*)

Qoyunçuluqla məşğul olan yarımköçəri Gəloxçular qışda Mil düzünə, yayda isə Laçın rayonunun Qaragöl gölünə və onun ətrafındakı ərazilərə köçürdülər. Sadınlar və Qarıqışlaq camaatı Qaragöldə, Novluda qoyun fermaları, Cilli göldə, Qoşnavrda isə mal fermalarını yaylağa çıxarırdılar. Quşçu camaatının əsas yaylaq yeri Göy bulaq idi. Soyuqbulaq, Qılışlı camaatı Qarıqışlaqla bir kolxoz olduğundan onların da əsas yaylaq yerləri Qaragöl, Sona bulağı, Novlu dərəsi idi. Hər il qoyun sürüləri əsasən may ayında yaylaqlara, oktyabr ayında isə qışlaqlara gətirilirdi. Nə yaylaqlarda, nə də qışlaqlarda çobanlar üçün heç bir şərait yaradılmamışdı. Çobanlar aranda yerdən qazılıb üstü qamış və torpaqla örtülmüş daxmalarda, yaylaqlarda isə uzun çubuqdan və su keçirməyən çadırlardan hazırlanmış alaçıqlarda yaşayırdılar. Çətin həyat şəraitində yaşayan çoban ailələri ağır zəhmət müqabilində özləri üçün bir inək, bir düyə və on beş qoyun, bir ulaq, bir at və ya bir qatırdan artıq heyvan saxlaya bilməzdilər. Buna o dövrün qanunları icazə vermirdi. Kolxoz ("kolxoz" sözü rus dilindən götürülmüş iki sözdən - " kollektivnoe xozyaystvo", yəni kollektiv təsərrüfat sözlərindən əmələ gəlmişdir) dövründə ağır zəhmət müqabilində kolxozçular əvvəllər əməkgününə bölünən buğda, yağ, mer-meyvə və s. alsalar da bu onların normal dolanışıqları üçün kifayət etmirdi. Qış aylarında fermada çalışan kolxozçulardan başqa qalan adamlar işsiz qalırdılar. Onlar məcbur olub işləmək üçün aran rayonlarına, ya da Bakıya və digər iri şəhərlərə üz tuturdular. Çox vaxt isə gedənlər geri qayıtmır, ailə qurub getdikləri yerlərdə məskunlaşırdılar. Gəloxçu ellərində toxuculuq mədəniyyəti inkişaf etmişdi. Qadınlar əsasən xaıça (gəbə), kilim, palaz, mezər, xurcun, marfaş, çuval, örkən, sicim və s. toxuyurdular. Toxuculuq işləri əsasən hanalarda həyata keçirilirdi. **Hana**ları ( Gəloxçu camaatı "**xana**"ya " **hana**" deyirdilər) əsasən meşədən kəsib gətirdikləri cavan və düz palıd ağaclarından hazırlayırdılar. Gəloxçuların keçmişdə demək olar ki, hər birinin evində hana olardı. Analar gənc qızlara toxuculuğun sirlərini öyrədərdilər. Nənələrimiz onlara miras qalmış bu mədəni irsi öz övladlarına ötürməklə yaşadardılar. Gəloxçu qadınları arasında hörmə, tikmə, qurama sənəti də geniş yayılmışdı. Bütün bunlar əsasən yun iplərdən, qismən də ipək və pambıq iplərdən hazırlanırdı. Xalçalar üçün ipləri hazırlamaq xeyli vaxt tələb edirdi. Qoyunun yunu qırxıldıqdan sonra onu tərtəmiz yuyurdular. Sonra yunu çeşidləyirdilər. Xalça üçün zərif yunlar seçilirdi. Daha sonra yunu əyirib ip halına gətirmək üçün onu darayırdılar. Bunun üçün daraqdan istifadə edirdilər. Daraq 10-12 sm enində üçbucaq şəklində baş-başa vurulmuş üç ədəd taxtadan və üçbucağın təpəsinə bərkidil-

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 499-508*

miş 10 sm uzunluğunda polad millərdən ibarətdir. Yunu daradıqdan sonra onu cəhrədə əyirirdilər. Çox vaxt qonşular, qohumlar yığışıb bir-birinə kömək edirdilər.

İpi əyirdikdən sonra onu boyayırdılar. Boyaq müxtəlif bitkilərdən, çiçəklərdən hazırlanırdı. Bu təbii boyalar əsrlər boyu keyfiyyətini dəyişmirdi.

Cavan qızlar ər evinə köçməmiş özlərinə cehiz hazırlayırdılar. Onlar yun yorğan-döşək, gəbə, müxtəlif hörmələr, tikmələr hazırlayırdılar və bunları ər evinə köçərkən özləri ilə aparırdılar. Gəloxçuların bir hissəsi yarımköçəri həyat tərzi keçirdiyindən onlar yaylaqlara köç edərkən qız və gəlinlərin toxuduqları xurcunlardan (üç cür olurdu, at üçün nisbətən böyük, ulaq üçün bir az balaca, insanlar üçün balaca), marfaşlardan, çətənlərdən (qarğıdan hazırlanırdı), örkən və sicimlərdən, isanbağılardan (alaçıq çubuqlarını bir-birinə bağlamaq üçün hörülmüş uclarında qotaz olan təxminən 30-40 sm uzunluğunda iplər), keçədən istifadə edirdilər. Nazik qarğıdan hörülmüş çətənlərdən pendirin suyunu süzmək üçün istifadə edirdilər. Ümumiyyətlə, bu əşyaların hərəsinin öz təyinatı var idi. Cavan qız və gəlinlər rəngli saplardan hörmələr toxuyurdular. Bunlar da təyinatına görə müxtəlif olurdu. Yastıqların üstünə qoyulan, samovar üstü, çarpayının, stolun qabağına tutulan hörmələr, rəngli saplar vasitəsilə ağ parça üzərinə tikilmiş müxtəlif bəzəklər (mənzərə, quş şəkilləri, gül-çiçək, ceyran və s. ) evlərin daxilinə xüsusi gözəllik verirdi. Evlər əsasən şərq üslubunda bəzədilirdi.

Kəndlərdə xüsusi tərbiyə üsulu vardı. Yanlış iş tutan, yanlış hərəkət edən adamlar qınaq obyektinə çevrilirdilər. Gəloxçuların özünəməxsus adət-ənənələri vardı. Kəndlərin birində yas düşəndə yeddi kəndin əhalisi həmin gün mərhumla vidalaşmaq üçün yas yeri olan kəndə toplaşırdılar. Hər kənddə ağsaqqallar olurdu. Onlar gələn qonaqları qarşılayır, yerbəyer edirdilər. Həmin gün camaat toplaşıb mərhumu son mənzilə yola salıb evlərinə dönərdilər. Qırx gün həmin kənddə toy eləməzdilər. Hətta çox vaxt qonşu kənddən də gəlib toy üçün icazə istəyirdilər. Mərhumun qırxı çıxandan sonra, toy eləmək istəyən mərhumun yaxınlarından icazə alıb xeyir işini yola verərdi.

**Xalçalar və xurcunlar. Şəməngül İbrahimova. Quşçu kəndi**









**İsanbağı (Alaçıq çubuqlarını bağlamaq üçün toxunmuş iplər). Sovet Salman qızı Abdullayeva. Sadınlar kəndi**











**Xalça. Suqra İbrahimova.Quşçu kəndi.**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 499-508*

*ISSN 2224-9257*

**Hörmələr. Rəbiyyə Mahmud qızı. Sadınlar kəndi.**



**Xalça. Tükəz Məmməd qızı. Sadınlar kəndi. 1947-ci il**





**Zibeydə Süleymanova. Xalçalar. Qarıqışlaq kəndi.**





*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 499-508*

**Xalça. Tamaşa İsmayıl qızı Mehdiyeva. Sadınlar kəndi. 1954-cü il.**






**Tikmələr və hörmə.Tamara Baxşalıyeva. Sadınlar kəndi. 1960-1970-ci illər.**



**Ədəbiyyat**

1. İlham Qəhrəman. Laçın folkloru. Adiloğlu, Bakı 2009
2. Qarabağ: folklor da bir tarixdir: IV kitab, Elm və təhsil, Bakı 2013
3. Ziyadxan Nəbibbəyli. Laçın-85. Araz nəşriyyatı, Bakı 2009
4. Zakir Orucov, Fehruz İsmayılov. Dağlarda qalan izlər. “ Elm və təhsil” Bakı 2016

**Rəyçi: Filalogiya üzrə fəlsəfə doktoru, dosent Allahverdiyev Vaqif Saleh oğlu**